# Məktəb psixoloqunun müəllimlərlə birgə fəaliyyətinin xüsusiyyətləri

**Aygül Məzahir qızı Mehmanova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aygulmehmanova2@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., Ü.A. Əfəndiyeva,
psixol.ü.f.d., S.H. Əlizadə

**Açar sözlər:** məktəb, psixoloq, müəllim, maarifləndirmə, təhsil, xidmət, fəaliyyət
**Ключевые слова:** школа, психолог, педагог, просветитель, образование, сервис, деятельность
**Key words:** school, psychologist, teacher, enlightenment, education, service, activities

Psixoloji komponentlər pedaqoji prosesdə əsas amillər, meyarlar kimi nəzərə alınıb, qiymətləndirilir. Bu fikiri XIX əsrdə də təhsil sistemində psixi amilin rolunu önə çəkərək rus ədibi, tənqidçisi B.Q. Belinski qeyd edirdi ki, "Psixologiyaya əsaslanmayan pedaqogika anatomiyanın mövcudluğundan xəbəri olmayan fiziologiya kimi yoxsuldur." (1. s. 114)

Bildiyimiz kimi, pedaqoji sahə üzrə təhsil alınan bütün ixtisaslarda psixologiya elminə az da olsa (I semestr) yer verilir. Universitet, institutlar müəllim peşəsinə yiyələnənləri psixoloji biliklərlə tanış edir. Uzun müddət pedaqoji fəaliyyət sahəsində çalışan müəllimlər ixtisasartırma və təkmilləşdirmə kursları vasitəsilə psixologiya elmindəki yeniliklərlə tanış olsa da, buna baxmayaraq bu sahədə işin ağırlığı məktəb psixoloqunun üzərindədir. Ü.A. Əfəndiyeva məktəb psixoloqunun işinin xüsusi vacibliyini qeyd edərək yazır: "Məktəb psixoloqunun əsas vəzifələrindən biri kimi məktəbin gündəlik həyatına yaş və pedaqoji psixologiyanın nailiyyətlərini daxil etməkdən ibarətdir. Psixoloji xidmət təhsil prosesinin optimal təşkil olunmasında, tərbiyəvi işlərdə səmərəli vasitə və metodların seçilməsində əsaslı rol oynaya bilər. Onun yerinə yetirdiyi çox funksiyalı, həll olunmalı məsələlərdən biri ilk növbədə müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi və şagirdlərin təlim-tərbiyə prosesinin əsl subyekti olması üçün lazımi şəraitin yaradılmasıdır.

Biz belə hesab edirik ki, bu gün məktəblərdə təlim-tərbiyə prosesinin aşağı səviyyədə olmasının səbəblərindən biri məktəb psixoloqunun pedaqoji kollektivlə az işləməsi və ya kifayət qədər işləməməsi ilə əlaqədardır. Təhsilin inkişafının müasir şəraitində məktəbə psixoloji xidmətin xüsusi təşkil edilmiş sistemi yaradılmalıdır. Bu elə bir sistem olmalıdır ki, o pedaqoqun şəxsiyyətinin inkişafının, onun psixoloji-pedaqoji səriştəliyinin yüksəldilməsinin ideoloqu və təşkilatçısı kimi çıxış etsin" (2. s. 82).

Prof. Ə.Ə. Əlizadə də məktəb psixoloqunun işinə xüsusi əhəmiyyət verirdi. O, pedaqoqun özünü mütəxəssis kimi təsdiq etməsində psixoloqların köməyindən yararlanmasının vacibliyini qeyd edərək yazır: "Dünən müəllim psixologiyanı hətta öz təcrübəsində belə tətbiq etmək istəyində tək idi, öz ümidinə qalmışdı. Ona nə kömək edən, nə də məsləhət verən vardı. Bu gün praktik psixoloq onun əvəzedilməz yardımçısıdır. Müəllim tətbiqi psixoloji məsələləri praktik psixoloqla qarşılıqlı əlaqə şəraitində uğurla həll edə bilər və etməlidir. Əgər tərbiyəçilər, pedaqoqlar, metodistlər və didaktiklər bu prosesin əsas iştirakçılarıdırlarsa, psixoloq onun məhz rejissoru sayılmalıdır. Praktik psixoloq psixologiyanın məktəb təcrübəsi ilə inteqrasiyasında önəmli rol oynaya bilər və oynamalıdır" (2, s. 83).

“Aparılmış tədqiqatlar göstərir ki, müəllimlər təlim-tərbiyə prosesinin təşkilində ünsiyyətə, müəllim-şagird münasibətlərinə xüsusi olaraq fikir vermirlər. Onlar tərəfindən dərsin kommunikativ tərəfindən daha çox metodik tərəfi qiymətləndirilir. Psixoloqlar daha başqa bir yanaşmanın vacibliyini göstərmişlər: yalnız biliklərin ötürülməsi deyil, müəllimin informasiya vasitəsilə təhsil alanların şəxsiyyətinin hərtərəfli inkişafına təsir göstərməsi də vacibdir. Bu işin nəticəsi isə o zaman mümkündür ki, bilikləri verdiyin adamlarla(subyektlərlə) kontakt yarada biləsən. Dar pedaqoji istiqamət şagirdin təlim fəaliyyətinin subyekti kimi tərbiyə olunmasına, ümumiyyətlə şəxsiyyət kimi formalaşmasına mane olur. Psixoloq müəllimin psixoloji-pedaqoji situasiyanı düzgün qavramaması, təfəkkürünün stereotipləri, öz şəxsi keyfiyyətlərini tam nümayiş etdirmək istəməməsi, davranış və qabiliyyətlərini refleksə edə bilməməsi kimi xüsusiyyətlərilə qarşılaşa bilər. Çox təəssüf ki, belə peşə deformasiyaları pedaqoqlar tərəfindən çox vaxt dərk olunmur” (2, s. 86).

Məktəb sahəsində psixoloji maarifləndirmə aşağıdakı istiqamətlər üçün həyata keçirilir:

1) Təlim prosesində şagirdlərin müşahidə olunan qüsurlarının aradan qaldırılması üçün müəllimlərin psixoloji biliklərlə silahlandırılması;

2) Dərs prosesinin səmərəli, daha da müasir standartlara, hər şagirdin qavramasına uyğun, şagirdin başa düşəcəyi şəkildə həyata keçirilməsi üçün bir sıra tövsiyələrin verilməsi;

3) Müəllimlərin psixoloji biliklərinin daha da yüksəldilməsi və s.

Psixoloq müəllim-şagird münasibətlərinin humanist, demokratik, şəxsiyyətə hörmət prinsipləri əsasında qurulması barəsində müəllimlərə xüsusi tövsiyələr verməlidir. Qeyd olunan prinsiplərin yerinə yetirilməsi üçün psixoloq müəllimlərə bir sıra tematik-seminarlar təşkil etməlidir. Pedaqoji kollektivlə iş prosesi müəllimlər və məktəb rəhbərləri arasında sağlam və işgüzar münasibətlərin formalaşmasına, kollektivin peşə səriştəliliyinin yüksəldilməsinə səbəb olacaqdır. Bu zaman psixoloji maarifləndirməni həyata keçirən şəxs-məktəb psixoloqunun da bir sıra vəzifələri yaranır:

1) Müəllimlərin şagirdləri öyrənilməsi ilə bağlı inkişafın yaş xüsusiyyətləri, psixi hal xassələr haqqında ümumi psixoloji biliklərlə tanış etmək;

2) Maarifləndirmə işinin forma metodlarını araşdırıb, ən səmərəli üsulunu tətbiq etmək;

3) Müəllimlərə anlaşıqlı cümlələrlə terminləri, nəzəriyyələri, praktikaları başa salmaq;

4) Müəllimləri korreksiyaedici metodlarla tanış etmək. Bu zaman psixoloqdan metodların və onların tətbiqi şərtlərini olduqca dərindən bilməsi tələb olunur.

Təhsil sahəsində psixoloji xidmətin yüksəldilməsi, tədris prosesində irəliləmə əldə etmək üçün praktik psixoloq psixologiyanın əsas istiqamətlərini (psixoloji maarifləndirmə, psixoprofilaktika, psixokonsultasiya, psixokonsilium və s.) bir-biri ilə qarşılıqlı əlaqədə həyata keçirməlidir. Psixoji maarifləndirmə tədbirləri psixoprofilaktikanın, psixodiaqnostikanın və psixokorreksiyanın qarşılıqlı əlaqəsini özündə əks etdirir. Məktəbdə baş verəcək hər hansı kritik hallarda və yaxud bu və ya digər şagirdlərin ciddi problemlərinin həlli ilə bağlı psixoloji konsiliumlar keçirilir.

Psixoloji konsilium – müxtəlif mövzularda psixoloji problemlərin həlli, aradan qaldırılması məqsədilə mütəxəssislər arasında aparılan fikir mübadiləsidir. Bir sözlə məktəbdə psixoloji konsilium idarəetmə sistemində işləyənlər: müəllim, rəhbər, müavin, həkim, psixoloq loqoped, defektoloq bir sıra hallarda valideyn və s. şəxslərin hər hansı problemlərlə bağlı məsləhətləşməsidir. Təhsil sistemində psixoloji konsiliumlar psixoloqun təşkilatçılığı ilə aparılır. Psixoloji konsiliumlar şagirdi daha dərindən öyrənmək, gələcəkdə şagirdlərin inkişafında xüsusi rol oynayan məqamları aşkarlamaq, onlarla işin münasibətləri düzgün qurmaq və s. məsələlərlə bağlı müəllimlərin məlumatlandırılması, psixoloqla birlikdə işgüzar münasibətidir.

Psixoloji konsilium dərs ili ərzində iki dəfə keçirilir. Burada seçilmiş təsir vasitələrinin faydalı, səmərəli olub, olmamasına aydınlıq gətirilir. Bu işgüzar əməkdaşlıq demək olar ki, hər zaman müsbət nəticələnir. Pedaqoqların rastlaşdıqları çətinliklər zamanı psixoloqlar onların ən yaxın köməkçisi rolunda çıxış edir. Pedaqoqlar artıq zəruri hallarda şagirdlərlə hər hansı çətinlik qarşısında olduqda praktik psixoloqun köməyinə ehtiyac duyur. Psixoloqdan dəstək, məsləhət alan müəllimlər öz gündəlik keçdiyi dərsi daha əyləncəli, maraqlı şəkildə tədris etməyi, şagirdin daxili aləminə enməyi, şagirdin diqqətini dərsə cəlb etməyi yaxşı bacarırlar. Onlar psixoloqdan şagirdlərin fərdi, konkret psixoloji xarakteristikaları haqqında informasiya öyrənib, uğurlu nəticələr əldə edirlər. Psixoloqun müəllimlərlə keçirdiyi konsultasiya işlərinin əsas məğzi müəllimlərin pedaqoji-psixoloji mədəniyyətinin yüksəldilməsindən, yeni pedaqoji ideya, metodikaların işlədilməsindən ibarətdir.

Məktəb psixoloqu müəllimlərin peşəkarlıq səviyyəsini qiymətləndirən zaman aşağıdakı məsələlərə xüsusi diqqət yetirməlidir:

1) Müəllimin ixtisas-peşə hazırlığı və təlim-tərbiyə işindəki uğurları;
2) Müəllim şəxsiyyətini tipoloji xüsusiyyətləri, kollektivdə və şagirdlər arasında reytinqi;
3) Müəllimin aqressivliyinin qiymətləndirilməsi;
4) Onun ünsiyyətlilik səviyyəsi və şagirdlərlə qarşılıqlı münasibətlərinin tərzi;
5) Konfliktli situasiyalarda davranışı;
6) Müəllimin peşə fəaliyyətində mövcud maneə və əngəllər;
7) Müəllimin mühüm şəxsi peşəkar keyfiyyətləri və s. (1. s.222)

Eyni zamanda məktəb rəhbərləri də məktəbin inkişaf konsepsiyasının, təşkilati strukturlarının modernləşdirilməsində pedaqoqların peşə ustalığının, səriştəliliyinin inkişaf etdirilməsi ilə bağlı praktik psixoloqa müraciət edərək fikirlərindən, köməyindən istifadə edirlər. Günümüzdə məktəb psixoloqları özlərini inkişaf etdirərək yeni psixoloji biliklərə, yeni kəşflərə, metodlara yiyələnib, psixologiya sahəsində tətbiq edirlər.

**Məqalənin aktuallığı.** Günümüzdə məktəb psixoloqunun müəllimlərlə birgə iş prosesinin düzgün qurulması, yaranmış problemlərin həlli zamanı qarşılıqlı fəaliyyəti böyük əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Müasir məktəb sistemində praktik psixoloqun vəzifələri, müəllimlər ilə qarşılıqlı əlaqə vasitəsi və s. məsələlər geniş təhlil olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəb psixoloqları, orta məktəb müəllimləri, tələbələr və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Çələbiyev N.Z. Təhsildə sosial-psixoloji xidmət (I hissə). Bakı, 2008.
2. Əfəndiyeva Ü. A. Müəllim şəxsiyyətinin psixologiyası. Bakı, 2014
3. Əmrahlı L.Ş. Psixoloji xidmətin əsasları (I kitab). Bakı, 2008.
4. Dr.Abalı O. Davranış problemleri ve çözüm yolları öğretmenler için (B) İstanbul, 2012.

**А.М. Мехманова**

## Характеристика взаимодействия школьного психолога с учителями


### Резюме

Школьной психолог в системе образования с учителями и учениками не ведет лечебное работы, а ведет работу по психодиагностике, о психологическом информирование и по психопрофилактике. Основные обязанности школьного психолога содействовать н улучшение системы образования, развитие личности в учениках в процессе образования, гуманизировать отношения между учителями и учениками. Совместная работа школьного психолога и учителей благоприятно влияет на результаты и достижения учеников. Школьный психолог должен вооружить учителей о возрастных кризисов психологического развития среди учеников. Получившие подмогу от школьного психолога учителя доводят свои предметы до учеников наиболее ярко, доходчиво и более привлекательно.


**A.M. Mehmanova**

## Characteristics of school psychologist interactions with teachers


### Summary

School psychologist is neither instructor in education system nor conductor of treatment on students, he/she runs psycho diagnostics, psychological enlightenment and psycho prophylaxis. Improvement of education system, personal development of students, and humanization of teacher-student relations in training process is one of the main duties of school psychologist. Nowadays, school psychologists are irreplaceable assistants in our education system. The mutual efforts of psychologists and school teachers always resulted in the escalation of students’ grades. The psychologists should always elucidate teachers with the knowledge of students’ psychological development and with the age crisis (depression).


**Redaksiyaya daxil olub:** 12.02.2020